1. Məhkumluq barədə arayışı hardan əldə edə bilərəm?
   **Cavab:** *Məhkumluq barədə arayışların verilməsi və bununla bağlı müraciətlərin qəbulu Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi, şəhər, rayon polis idarə və şöbələri, habelə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 706 nömrəli Fərmanına müvafiq olaraq məhkumluq haqqında arayışlar eyni zamanda Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən "ASAN xidmət" mərkəzlərində verilir.*
2. Məhkumluğum yoxdur, arayış almalıyam?
   **Cavab:** *Bəli, məhkumluq haqqında arayış vətəndaşın məhkumluğunun olub-olmadığını yoxlamaq üçün nəzərdə tutulur.*
3. İş yerindən arayışı mygov-dan və ya egov-dan çıxarıb gətirə bilərəm?
   **Cavab:** *Xeyr, iş yerindən arayış tərtib olunma tarixi göstərilməklə təşkilatların blanklarında çap olunur, təşkilatın və ya struktur bölmənin rəhbərləri tərəfindən imzalanır.*
4. İş yerim yoxdur, zal nəzarətçisi olmaq üçün müraciət edə bilərəm?
   **Cavab:** *Pedaqoji profilli ixtisaslar üzrə bakalavr və ya subbakalavr peşə-ixtisas dərəcəsinə malik olan və ya dövlət qulluğu sertifikatı olan şəxslərdən iş yeri tələb olunmur.*
5. Zal nəzarətçisi sertifikatı almaq üçün yaş həddi var?
   **Cavab :** *22-45 yaş aralığında olan şəxslər müraciət edə bilərlər.*
6. Müsahibədə hansı suallar verilir?
   **Cavab:** *Müsahibə zamanı namizədin fiziki və psixoloji cəhətdən sağlamlığı, ümumi dünyagörüşü, nitqi, emosional davamlılıq və stres vəziyyətində işləmək bacarığı yoxlanılır.*
7. Müsahibə mərhələsi üçün necə ödəniş edək?
   **Cavab:** *Qeydiyyat, sənədlərin qəbulu və müsahibə mərhələsi ödənişsizdir.*
8. Ödənişi əvvəldən ödəməliyəm?
   **Cavab:** *Xeyr, ödənişli həyata keçirilən mərhələdən qeydiyyatdan keçdiyiniz zaman həmin mərhələ üçün nəzərdə tutulan ödənişi etməyiniz tövsiyə olunur.*
9. Şəxsi kabinetimə vəsaiti necə yükləyə bilərəm?
   **Cavab:** *Bu barədə məlumatı https://epayment.dim.gov.az/ elektron ünvanına daxil olaraq əldə edə bilərsiniz.*
10. Ötən il zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılması prosesindən keçərək B sertifikatı əldə etmişəm. Cari ildə yenidən A sertifikatı almaq üçün prosesdə iştirak edə bilərəm?
    **Cavab:** *Sertifikat əldə etmiş şəxslər zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılması prosesində yenidən iştirak edə bilməzlər.*
11. Zal nəzarətçisi sertifikatı əldə etdikdən sonra DİM tərəfindən keçirilən bütün imtahanlara təyin oluna bilərəm?

**Cavab:** *İmtahanlara təyinat aparılan zaman imtahanların xüsusiyyətləri, nəzarətçinin ixtisası, yaşı və digər tələblər də gözlənilməklə, zal nəzarətçisi kimi fəaliyyəti sertifikatlaşdırılmış nəzarətçilərə üstünlük verilir. Hər hansı bir imtahan üçün tələb olunan zal nəzarətçilərinin sayı zal nəzarətçisi kimi fəaliyyəti sertifikatlaşdırılmış nəzarətçilərin sayından az olduqda proqram təminatı vasitəsilə təsadüfi qaydada seçim aparılaraq təyinat aparılır.*

12. Mən Azərbaycan dili müəllimiyəm, zal nəzarətçisi sertifikatı aldıqdan sonra buraxılış imtahanlarında iştirak edə bilərəm?

    **Cavab:** *Xeyr, zal nəzarətçiləri imtahanlara təyin olunarkən ixtisas məhdudiyyəti tətbiq olunur. Belə ki buraxılış imtahanında nəzarətçilər Azərbaycan dili, rus dili, gürcü dili, riyaziyyat və xarici dil fənlərini tədris etməyən müəllimlər arasından təyin olunur.*

13. Dövlət qulluqçusu zal nəzarətçisi ola bilər?

    **Cavab:** *"Dövlət qulluğu haqqında" qanunun 20.1.1 və 20.1.2-ci maddələrinə əsasən, dövlət qulluqçularının əlavə ödənişli fəaliyyətlə məşğul olmağına icazə verilmir.*

14. İlkin test imtahanından qeydiyyatdan keçdiyim halda iştirak edə bilmədim, ödənişi geri ala bilərəm?

    **Cavab:** *Xeyr, qeydiyyatdan keçmiş namizədlər müvafiq mərhələdə iştirak etmədikdə ödədiyi məbləğ geri qaytarılmır.*

15. Müsahibə mərhələsi üçün vaxtı seçib qeydiyyatdan keçmişəm, lakin həmin vaxtda gələ bilmirəm. Nə edə bilərəm?

    **Cavab:** *Bütün mərhələlər üçün qeydiyyatdan keçdiyiniz vaxta 48 saat qalmışa qədər imtina edib sistemdə aktiv olan başqa vaxtı seçə bilərsiniz.*

16. Mən Tərtər rayonunda yaşayıram, zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılması mərhələləri üzrə Bakıda iştirak edə bilərəm?

    **Cavab:** *Xeyr, şəxsi kabinetinizdə qeyd edilən faktiki yaşadığınız rayonun aid olduğu DİM-in müvafiq regional bölmələrində iştirak edə bilərsiniz.*

17. Mən kimya ixtisasını bitirmişəm, işləmirəm, zal nəzarətçisi kimi qeydiyyatdan keçə bilərəm?

    **Cavab:** *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"na əsasən, 2010/2011-ci tədris ilinədək bu ixtisas üzrə ali təhsilin bakalavriat səviyyəsinə qəbul olunanlar pedaqoji təhsilə malik olan şəxslər hesab edilirlər. 2010/2011-ci tədris ilindən sonra bu ixtisas üzrə ali təhsilin bakalavriat səviyyəsinə qəbul olunanlar ixtisasın uyğun gəldiyi müvafiq ümumtəhsil fənni üzrə pedaqoji fəaliyyətlə məşğul ola bilərlər. Bu Qaydaların 3.3. maddəsinə uyğun olaraq, müəllimlərin işə qəbulu müsabiqəsinin nəticəsinə əsasən işə qəbul olunmuş pedaqoji təhsilə malik olmayan ali təhsilli mütəxəssislər baza təhsilindən asılı olaraq pedaqogika, psixologiya və təlim strategiyaları ilə bağlı Azərbaycan*

*Respublikasının* Elm *və Təhsil Nazirliyi tərəfindən təşkil olunan müvafiq ödənişsiz təlim kurslarına cəlb* olunurlar. *Təlim kurslarını başa vurmuş şəxslərə forması Nazirlik tərəfindən müəyyən edilən sertifikat verilir. Əgər bu təlimdən keçmisinizsə və ya 2010/2011-ci tədris ilinədək bu ixtisas üzrə ali təhsilin bakalavriat səviyyəsinə qəbul olmusunuzsa, qeydiyyatdan keçə bilərsiniz.*